**BAKI DÖVLƏT UNİVERSİTETİ**

---

**2023-cü ildə** SOSİOLOGİYA
**kafedrasında (şöbəsində, ETİ, ETM, ETL-də) elmi plan üzrə yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticələrinin**

# HESABATI

**Mövzunun adı:** **Sosial təhlükəsizlik probleminin sosioloji təhlili**

**Mövzu rəhbərinin soyadı, adı və atasının adı:** **Həsənov Rəfail Musa oğlu**

**Mövzunun icra müddəti (başlama və bitmə tarixi):** **01 yanvar 2023-cü il-31 dekabr 2023-cü il**

**B a k ı - 2023**

**Mövzu üzrə icraçılar haqqında məlumat (icraçılar, birinci mövzu rəhbər yazılmaqla):**

| S/S | Soyadı, adı, atasının adı | Təvəllüdü | Vəzifəsi | Ştat vahidi | Elmi adı və elmi dərəcəsi dərəcəsi | Ştat vahidləri üçün ikinci iş yeri, yarımştatlar üçün əsas iş yeri |
|---|---|---|---|---|---|---|
| 1. | Həsənov Rəfail Musa oğlu | 12.11.1962 | Kafedra müdiri | 0,5 | Professor, sosiologiya üzrə elmlər doktoru | Sosiologiya kafedrası |
| 2. | Əzimov Kazım Ağamirzə oğlu | 10.02.1951 | Professor | 1 | Professor, fəlsəfə üzrə elmlər dokrotu | Sosiologiya kafedrası |
| 3. | Ağayev Tahir Bayram oğlu | 18.10.1956 | Dosent | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru | Sosiologiya kafedrası |
| 4. | Cavadova Hörmət Qənbərəli qızı | 22.05.1953 | Dosent | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru | Sosiologiya kafedrası |
| 5. | İsmayılova Sevil Aydın qızı | 30.09.1967 | Dosent | 1 | Dosent, fəlsəfə üzrə fəlsəfə doktoru | Sosiologiya kafedrası |
| 6. | Əliyeva Yaqut Nadir qızı | 27.10.1973 | Dosent | 1 | Dosent, sosiologiya üzrə fəlsəfə doktoru | Sosiologiya kafedrası |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 7. | Xəlilova Fərəh Rəhman qızı | 24.08.1976 | Müəllim | 1 | Sosiologiya üzrə fəlsəfə doktoru | Sosiologiya kafedrası |
| 8. | Haşımova Südabə Söhrab qızı | 14.06.1973 | Müəllim | 1 | Sosiologiya üzrə fəlsəfə doktoru | Sosiologiya kafedrası |
| 9. | Nəcəfova Natəvan Xeyrulla qızı | 03.10.1972 | Müəllim | 1 | | Sosiologiya kafedrası |

| | |
|---|---|
| 1 | **Mövzu və mövzu üzrə cari ildə yerinə yetirilmiş elmi işlər**<br>*Plan üzrə hər bir mövzunun, hər bir elmi tədqiqat işinin aktuallığı,məqsədi və alınmış elmi nəticələr ayrılıqda göstərilməli, ad soyad tam yazılmalıdır.* |
| | **Mövzunun adı**: Sosial təhlükəsizlik probleminin sosioloji təhlili.<br>**Mövzunun aktuallığı:** Sosial təhlükəsizlik probleminin nəzəri-metodoloji əsasları və onun qloballaşma mühitində yeri və rolu<br>**Mövzunun məqsədi:** Azərbaycan cəmiyyətində əhalinin təhlükəsizliyinə təsir edən sosial amilləri müəyyən etmək, sosial təhlükəsizliyin təmin edilməsi problemlərinin sosioloji tədqiqat konsepsiyasının metodoloji əsasını hazırlamaqdan ibarətdir.<br>**Mövzunun yenilik dərəcəsi:** Sosioloji kateqoriya kimi “sosial təhlükəsizlik” anlayışının dəyişməsi prosesi ilk növbədə dəyər oriyentasiyalarının və əxlaqi münasibətlərin dəyişməsi ilə bağlıdır ki, bu da təbii ki, fərdin və cəmiyyətin sosial təhlükəsizliyinin artırılmasına birbaşa təsir göstərir.<br>**Mövzunun tətbiq sahəsi**: Sosial təhlükəsizliyin əsaslandırılmış paradiqma və konsepsiyasının, sosiumun təhlükəsiz inkişafının geniş qəbul olunmuş nəzəriyyəsinin, çağırış və təhdidlərin proqnozlaşdırılmasının həyata keçirilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təkliflərin verilməsi;Müxtəlif QHT-lərlə bu yöndə müvafiq məsələlərin işlənib hazırlanması; Ali məktəbdə tədris prosesində elmi tədqiqatın nəticələrindən nəzəri və təcrübə istiqamətlərdə istifadə olunması.<br><br>**Elmi tədqiqat işi 1. Azərbaycanın milli təhlükəsizliyi kontekstində gənclər siyasəti (sos.e.d., prof. Rəfail Həsənov)**<br>Gənclər siyasəti ilə milli təhlükəsizlik arasındakı əlaqə problemi həm milli ruhun qorunması, həm də xarici ekspansiya, həm mədəniyyətlərin dialoqu, həm də milli dəyərlər sistemlərini sarsıtmaq üçün çoxdan mövcud olan bir vasitədir. Gənclər sadəcə olaraq hər hansı bir cəmiyyətin təkrar istehsalı üçün rezerv deyillər; onlar çoxdan bəri cəmiyyətin çoxşaxəli inkişafında fəal subyekt rolunu oynayan bir sosial qrup kimi çıxış edirlər. Cəmiyyətdə baş verən dəyişikliklərin dərəcəsini və məzmununu kimin müəyyənləşdirməsi məsələsinə bir qədər mücərrəd yanaşsaq, onların ilk növbədə gənclər arasında baş verdiyini görmək olar. Azərbaycanın milli təhlükəsizliyi baxımından müasir gənclərin sosial problemləri və onların həlli yollarının tədqiqi.<br><br>**Elmi tədqiqat işi 2. İnterdisiplinar paradiqma sosial tədqiqatın metodologiyası və metodu (fəl.e.d., prof. Kazım Əzimov)** |

Bir əsrdən artıqdır ki, bütün dünyada universitetlər və kolleclər biliklərin yayılması və yeni biliklərin yaradılması platforması kimi akademik fənlərə etibar edirlər. Bu gün bütün səviyyələrdə interdisiplinar metodologiya daha çox yayılmışdır, çünki mürəkkəb suallara cavab vermək, mürəkkəb problemləri həll etmək hər hansı bir konkret fənnin sərhədlərindən getdikcə daha çox kənara çıxan mürəkkəb məsələlərin ardıcıl şəkildə başa düşülməsi və həll edilməsi üçün interdisiplinar metodologiya və metodların inteqrasiyası tələb olunur. Müasir Amerika tədqiqatçısı Carole L. Palmer (2001) yazdığı kimi, "Alimlərin müraciət etdiyi real tədqiqat problemləri nadir hallarda ayrıca fənn kateqoriyaları daxilində yaranır və onların həlli yolları da yoxdur" (s. vii). Tədqiqatımız (1) fənlərarası tədqiqatların mənasını izah edir, (2) fənlərarası tədqiqatların tərifini təqdim edir, (3) fənlərarası tədqiqatların nə olmadığını izah edir, (4) fənlərarası terminin bu gün necə dəyişkən şəkildə istifadə edildiyini müzakirə edir və (5) onun metodoloji prinsiplərini müəyyən edir.

**Elmi tədqiqat işi 3. Latent funksiyalar cəmiyyətin sosial strukturunda baş verən proseslərin öyrənilməsinin mühüm şərti kimi (fəl.e.n., dos. Tahir Ağayev)**

Elmi-tədqiqat işdə tədqiq olunan problem ilk növbədə cəmiyyətdə sabitliyin və inkişafın qorunub saxlanılmasına, zəruri sosial nizamın təmin edilməsinə istiqamətləndiyi üçün aktual hesab olunur. Latent funksiyaları təhlil etməklə müxtəlif institutların bir-birindən asılılığının, qarşılıqlı uyğunlaşmasının, bütövlükdə sosial struktur üçün, " gözlənilməz" rolunu yerinə yetirmək bacarığının real mənzərəsini araşdırmaqdır.

**Elmi tədqiqat işi 4. Azərbaycanda konfessional fərqlilik və İslam dini (fəl.e.n., dos. Hörmət Cavadova)**

Azərbaycanda müxtəlif milli-mənəvi və konfessional birliklər öz xüsusiyyətlərini hərtərəfli şəkildə inkişaf etdirmək imkanlarına malikdirlər. Azərbaycan qədim dövrlərdən çoxsaylı millətlərin vətəni olmuşdur. XIX əsrdə carizmin yerlərdə yürütdüyü milli siyasət nəticəsində Azərbaycana müxtəlif xalqların, dinlərin,mədəniyyətlərin nümayənsələri köçürülmüşdür. Azərbaycan cəmiyyətindəki multikultural mühit ölkədəki müxtəlif mədəniyyətlərin və dinlərin azad fəaliyyəti üçün geniş imkanlar yaratmışdır. Unikal dözümlülük və tolerantlıq mühiti əsrlər boyu inkişaf edərək müasir dövrdə ölkəmizdə multikultural cəmiyyətin formalaşmasının bazisini təşkil edir. Müstəqil Azərbaycanda multikulturalizmin inkişaf dinamikası dövlətin bu sahədə apardığı ardıcıl siyasətdən və xalqın özünün tolerantlığından irəli gəlir. Ölkə rəhbərliyinin bu istiqamədə yürütdüyü ardıcıl siyasəti regionda Azərbaycanın geosiyasi nüfuzunu artırmaqla yanaşı, həm də Cənubi Qafqaz və Xəzər hövzəsində reqional sabitlik və təhlükəsizliyin təmin olunmasına ciddi təsir göstərir.

**Elmi tədqiqat işi 5. Azərbaycan və Türkiyənin xeyriyyəçilik fəaliyyətinin oxşar və fərqli xüsusiyyətləri (fəl.e.n., dos. Sevil İsmayılova)**

Türkiyədə müasir xeyriyyəcilik fəaliyyəti təşkilati normativ aktlara əsaslanır. 1977- ci ildə Ehtiyacı olanlara - 65 yaşdan yuxarı əlillərə və tənha qocalara ödənişlər haqqında 2022 saylı qanun qəbul edildi ki, bu da bugünkü anlayışda sosial yardımın doğulması sayıla bilər. 1982-ci ildə Milli Təhsil Nazirliyinə imkansız tələbələri yemək və digər xidmətlərlə sığınacaqla təmin etmək səlahiyyəti verildi. 1983-cü ildə Uşaqların müdafiəsi və sosial xidmətlər təşkilatı yoxsullara maddi yardım göstərmək hüququ əldə

edib. 1984-cü ildə Xeyriyyə fondlarının Baş İdarəsinə müxtəlif sosial yardımlar göstərmək səlahiyyəti verildi. 1984-cü ildə 3294 saylı "Sosial qarşılıqlı yardım və həmrəyliyə dəstək haqqında" Qanunun qüvvəyə minməsi ilə ümummilli Sosial Qarşılıqlı Yardım və Həmrəylik Fondu yaradılmış, ehtiyacı olan və imkansız təbəqələrə yardımın koordinasiyası üçün baş katiblik təşkil edilmişdir. 2008-ci ildə vəqflər haqqında yeni qanun qəbul edilərək bu qurumun islahatının növbəti mərhələsi başa çatdırıldı. "1990-2000-ci illərdə Türkiyədə vəqflərin inkişafının yeni mərhələsi bu sahədə kifayət qədər çox sayda "dünyəvi", qeyri-islam xarakterli könüllü təşkilatları birləşdirən yeni qurumun yaranması ilə bağlıdır. "Türkiyənin "üçüncü sektoru"nun vəqfi" və ya TYUSEV" Xeyriyyəçilik Azərbaycan üçün də xarakterik olan fundamental tarixi ənənələrdən biridir. Son illər Azərbaycanda xeyriyyəçilik institutu intensiv şəkildə canlanmağa və fəal inkişaf etməyə başlayıb. Bu, bir çox cəhətdən Azərbaycanın birinci xanımı, ölkənin vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük səyləri və şəxsi təşəbbüsü sayəsində mümkün olmuşdur.

**Elmi tədqiqat işi 6. Fərqli şəraitə malik olan ailələrdə məhdud imkanlı (əlil) uşaqlar: uşaqların şəxsiyyət kimi formalaşmasına sağlamlıq və həmin imkanların təsiri problemi (sos.e.n., dos. Yaqut Əliyeva)**
Fərqli şəraitə malik olan ailələrdə məhdud imkanlı (əlil) uşaqların sağlamlıq problemini öyrənmək, onun və fərqli imkanların uşaqların şəxsiyyət kimi formalaşmasına təsiri problemi araşdırılmışdır. Tədqiqatın predmeti uşaqların şəxsiyyətinin formalaşmasına mühüm amil və keyfiyyət xarakteristikaları kimi fərqli şəraitə malik olan ailələrdə məhdud imkanlı (əlil) uşaqların sağlamlıq probleminin öyrənilməsidir. Tədqiqatın obyekti 0-18 yaşa qədər uşaqlardır. Mövzunun tədqiqi üçün xarici ölkələrin ədəbiyyatından təcrübə öyrənilmiş və yerli tədqiqatçıların əsərləri tədqiq edilmişdir. Tədqiqat işində yeni ideyalar və təklifkər irəli sürülmüş, yeni yanaşmalar təklif edilmiş və prioritetlər göstərilmişdir. Mövzu kompleksli, sistemli olaraq araşdırılmışdır. Tədqiqatın məqsədi fərqli şəraitə malik olan ailələrdə məhdud imkanlı (əlil) uşaqların sağlamlıq problemini öyrənmək, onun və fərqli imkanların uşaqların şəxsiyyət kimi formalaşmasına təsiri problemini araşdırmaqdan ibarətdir.

**Elmi tədqiqat işi 7. Hüquqi mədəniyyət və beynəlxalq hüquq (sos.e.n., müəl. Fərəh Xəlilova)**
Elmi-tədqiqat işində müasir qloballaşma prosesləri kontekstində beynəlxalq müstəvidə reallaşan hüquqi mədəniyyətin beynəlxalq hüquq institutunun effektivliyinə təsiri araşdırılır. Beynəlxalq hüququn reallaşmasının zəruri elementlərindən biri hüquqi mədəniyyətin müvafiq səviyyəsidir. Müasir dünyada baş verən hadisələr onu göstərir ki, beynəlxalq hüququn adekvat səviyyədə reallaşmasında ciddi problemlər mövcuddur. Beynəlxalq hüququn effektivliyinin təmin olunmasına yönəlmiş müxtəlif beynəlxalq institutların yaranması və formalaşmasına baxmayaraq onun effektivliyi kifayət dərəcədə problematik olaraq qalır. Buna təsir göstərən əsas amillərdən biri beynəlxalq hüquqi mədəniyyətin səviyyəsidir. Beynəlxalq hüquqi mədəniyyətin mövcud vəziyyəti onu təşkil edən komponentlərin göstəriciləri ilə xarakterizə oluna bilər. Bununla bağlı biz insanların hüquqi şüurunun, hüquqi fəaliyyətin, hüquqi aktlar sisteminin keyfiyyətində mühüm problemlərin mövcudluğunu görə bilərik. Müvafiq beynəlxalq hüquqi mədəniyyətin formalaşmasında və beynəlxalq hüququn reallaşmasının təmin olunmasında xüsusi olaraq sosial kapital amilininin rolunu da göstərmək vacibdir. Sosial kapitalın beynəlxalq səviyyədə müvafiq reallaşması çoxlu sayda amillərdən asılıdır və müasir zamanda biz bununla bağlı xeyli sayda mürəkkəb məsələlərin mövcudluğunu görə bilərik.

**Elmi tədqiqat işi 8. Azərbaycanda siyasi sosiallaşma prosesinin xarakterik xüsusiyyətləri (sos.e.n., müəl. Südabə Haşımova)**

Mövzunun aktuallığı: Azərbaycanda siyasi sosiallaşma prosesinin inkişaf xüsusiyyətlərinin araşdırılması cəmiyyət-d münasibətlərində sabitliyə, tərəqqiyə nail olmağa, dövlət tərəfindən sağlam cəmiyyət formalaşdırmağa və cəmiyyətin rifa yüksəltməyə xidmət edir. Cəmiyyətin siyasi sosiallaşması sosial inkişaf problemlərinə aiddir. Siyasi sosiallaşma cəmiyyətdə mö olan mexanizmlərin mahiyyətini, qanunlarını və xüsusiyyətlərini, ictimai-siyasi təcrübənin qorunub saxlanılmasını və yenilənmə normaların, dəyərlərin və institutların davamlılığı və dəyişiliklərini əks etdirdiyi üçün həmişə əhəmiyyətlidir. Ölkənin gələcəyi cəmiyy hökm sürən siyasi sosiallaşma modelindən asılıdır. Azərbaycan cəmiyyətinin sosial-siyasi fəallığını ləngidən ar müəyyənləşdirilmiş və siyasi sosiallaşma prosesinin cəmiyyətin effektiv təşkilatlanmasının təmin edilməsində vacib olduğu müəy edilmişdir; ölkəmizdə vətəndaş fəallığını müəyyənləşdirmək üçün respondentlər arasında sorğu keçirilmiş və siyasi iştirakçılıq səviy müəyyən edilmişdir; ölkədə demokratik dəyərlərin qorunması, siyasi mədəniyyətin yüksəldilməsi, siyasi sosiallaşma prosesinin eff təşkil

olunması məqsədilə təkliflər verilmişdir. Azərbaycan reallığında siyasi sosiallaşma prosesinin xarakterik xüsusiyyətlərini a dırmaq.Ölkəmizdə siyasi sosiallaşma prosesinin inkişaf meyllərini, siyasi sosiallaşma prosesinə təsir edən amilləri nəzərdən keçir Azərbaycanın siyasi reallığının ən vacib xüsusiyyətlərinin öyrənilməsidir. Siyasi sosiallaşma prosesinin ölkənin siyasi həyatına təsi kanlarını araşdırmaqdır.

**Elmi tədqiqat işi 9. Müasir Azərbaycan cəmiyyətində valideyn himyəsindən məhrum olmuş uşaqlarla bağlı sosial siyasətin əsas istiqamətləri (müəl. Natəvan Nəcəfova)**

Valideyn himayəsindən məhrum olmuş uşaqlar əhalinin həssas qrupudur. Onların himayəsi dövlət tərəfindən sosial siyasətlə təmin olunur. Bu uşaqların uşaq müəssisələri və internat məktəblərindən ailələrə yerləşdirilməsi dövlət proqramı ilə tənzimlənir. Onların vətəndaşlara övladlığa verilməsi işi dövlət tərəfindən çox ciddi şəkildə nəzarətdə saxlanır. Bu uşaqların gələcəkdə müstəqil həyata adaptasiyası, cəmiyyərin fəal üzvü kimi formalaşması istiqamətində mühüm addımlar atılır. Müxtəlif cəmiyyətlərdə həm konkret fərdlərə, həm də müxtəlif sosial qruplara yönəlmiş, real vəziyyəti obyektivliklə araşdıran və qiymətləndirən, elmi əsaslarla işlənib hazırlanmış sosial siyasətə ehtiyac vardır. Sosial siyasətin məqsədi bu və ya digər cəmiyyəti təşkil edən siniflərin, sosial qrupların, sosial təbəqələrin (stratların), milli və ya digər etnik birliklərin, dil qruplarının, konfessional qrupların tərəqqisi, habelə insanın inkişafıdır.

**2 Hesabat dövründə alınmış ən mühüm elmi nəticələr**

*Ən mühüm nəticələr səlis və konkret yazılmalıdır*

1. Ölkədə gənclərin ən aktual problemləri sosial xarakterli problemlərdir - bunlar ilk növbədə mənzil problemləri, işsizlik və gənc ailələrin, əlillərin və əhalinin digər həssas qruplarının problemləridir.

Gənclərin asudə vaxtlarından səmərəli istifadə etməsi və onlar üçün müvafiq asudə vaxt infrastrukturunun yaradılması gənclər arasında deviant davranış formalarının qarşısının alınmasında əhəmiyyətli rol oynaya bilər.

Təsərrüfatı idarə etmənin komanda-inzibati sisteminin ləğvindən onilliklər keçməsinə baxmayaraq, gənc nəsildə dövlətə arxalanmaq istəyi çox güclüdür. Bununla belə, sosial yönümünün belə aydın ifadəsinə baxmayaraq, gənclər gündəlik həyatlarında yaşlı həmvətənlərindən daha az dövlət dəstəyindən asılıdırlar.

2. İnterdisiplinar yanaşma xüsusi tədqiqat metodu deyildir. O, "qarışıq metodlar" strategiyasına aid edilir, interdisiplinar hibrid metodunun ənənəvi keyfiyyət və kəmiyyət tədqiqatlarının təbii tamamlayıcısı kimi qəbul edilir.

   Fəlsəfəni (praqmatizmi) qarışıq metodlar üzrə tədqiqatlar üçün cəlbedici fəlsəfi tərəfdaş kimi təqdim etməyə və qarışıq metodlar üzrə tədqiqatların layihələndirilməsi və aparılması üçün nəzəri-metodoloji çərçivələrin vacibliyini əsaslandırmağa ehtiyac duyulur.

   Bunu edərkən "paradiqmaların müharibəsi" və uyğunsuzluq tezisini nəzərdən keçirmək, kəmiyyət və keyfiyyət tədqiqatları arasında bəzi ümumi cəhətləri göstərmək, praqmatizmin prinsiplərini şərh etmək, qarışıq tədqiqatın fundamental prinsiplərini və onun necə tətbiq olunacağını izah etmək lazımdır.

3. İnsanların həyatında latent funksiyaların təhlili müxtəlif institutların bir-birindən asılılığının, qarşılıqlı uyğunlaşdırılmasının, onların bütövlükdə cəmiyyət, digər institutlar üçün "gözlənilməz" rolunu yerinə yetirmək bacarığının tam mənzərəsini təmin etməyə imkan verir. Latent funksiyaların təhlili aparılmadan bu və ya digər institutun sosial proseslərdə rolu haqqında təsəvvürlər bəsit və qeyri-dəqiq olacaqdır. Sosioloji aspektdə latent funksiyaların iki tipini fərqləndirmək olar: ümumi və spesifik.

   Ümumi latent funksiya bütün sosial institutların şəxsiyyətin sosiallaşmasında böyük rol oynamasını nəzərdə tutur. Spesifik latent funksiyalar isə müxtəlifdir və burda sosial institutun gözlənilməz nəticələri ola bilər.

   Bu və ya digər institutun fəaliyyətinin latent nəticələrini görmək, bütövlükdə cəmiyyətin inteqrasiyası, sabitliyi və inkişafı üçün onların rolunu və əhəmiyyətini düzgün təsəvvür etmək mürəkkəb sosial hadisələrin müasir səviyyədə təhlilinin mühüm şərtidir.

4. Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının mərkəzlərindən biri olub. Azərbaycan dövlətinin islam aləmində həmrəyliyi, əməkdaşlığı möhkəmləndirmək istiqamətində həyata keçirdiyi siyasət həm ölkə daxilində, həm xaricdə islami birliyin daha da möhkəmlənməsinə böyük töhfələr verir.

5. Bu gün xeyriyyəçilik ümumbəşəri dəyərdir, vətəndaş cəmiyyətinin ən mühüm atributlarından biridir. Sosial dövlətin mühüm funskiyalarından biri də xeyriyyəçilik fəaliyyətinin genişləndirilməsidir. Bu baxımdan Azərbaycan və Türkiyənin xeyriyyəçilik fəaliyyətinin oxşar və fərqli xüsusiyyətlərini araşdırmaq oluqca aktualdır.

6. Sağlamlıq uşağın əmək qabiliyyətinin və normal ahəngdar inkişafının vacib amili və keyfiyyət xarakteristikasıdır. Uşaqların

tərbiyəsi, təlimi və təhsilinin səmərəliliyi onların sağlamlığından, cəmiyyətin inkişaf perspektivləri isə uşaqların sağlamlığından asılıdır. Ona görə də dövlət uşaqların sağlam inkişafında maraqlı olmalıdır.

7. Beynəlxalq hüquq institutunun effektivliyinə təsir göstərən mühüm amillərdən biri beynəlxalq hüquqi mədəniyyətin səviyyəsidir. Beynəlxalq hüquqi mədəniyyət cəmiyyətin ümumi mədəniyyətinin təzahürü və nəticəsidir.
   Müvafiq beynəlxalq hüquqi mədəniyyətin formalaşmasında sosial kapital amilinin rolu önəmlidir. Xüsusi qlobal beynəlxalq hüquqi mədəniyyətin formalaşması beynəlxalq hüququn efektivliyini təmin edən əsas amillərdəndir
8. Cəmiyyətin demokratikləşməsi prosesini ləngidən əsas səbəb vətəndaşların hüquqi və siyasi mədəniyyətinin aşağı olmasıdır. Demokratiyanı gücləndirmək üçün yalnız demokratik təsisatlar və bazar mexanizmləri yaratmaq kifayət deyil, cəmiyyətdəki demokratik dəyişikliklərin dərinləşməsi və sosial birliyin möhkəmləndirilməsi ehtiyaclarına cavab verən milli siyasi mədəniyyətin formalaşması vacibdir.
   Son illər siyasi təhsil problemi aktuallaşır. Ancaq yeni siyasi sosiallaşmanın formalaşması yalnız humanitar və siyasi təhsil sistemi ilə məhdudlaşmır, yeni sosiallaşma institutlarının yaranması zərurəti ilə şərtlənir.
9. Əhalinin həssas qruplarına (uşaqlara, yaşlılara, əlillərə, imkansızlara və b.) xüsusi diqqət və qayğı göstərilməsi, onların sosial müdafiəsinin həyata keçirilməsi sosial siyasətin çox mühüm tərkib hissəsi və inkişaf istiqamətidir. Uşaqların qorunması, sağlam böyüməsi və cəmiyyətin yetkin üzvü kimi formalaşması çoxaspektli fəaliyyət tələb edir. Uşaqların fiziki və əqli cəhətdən tam formalaşmaması, valideynlərindən, ailənin yaşlı üzvlərindən, cəmiyyətin digər üzvlərindən asılı olması, yetərli səviyyədə fəaliyyət göstərə bilməməsi, əməkqabiliyyətli yaşda olmaması, mənfi təsirlərə daha həssas münasibət bəsləməsi və s. onları paritet istiqamətli sosial siyasətdə xüsusi əhali kateqoriyası kimi səciyyələndirməyə imkan verir.

**3** **Dərc olunmuş elmi işlərin xarakteristikası**

**3.1. Mövzu üzrə Web of Science bazasına daxil olan Q1-Q4 kvartil reytinqinə düşən beynəlxalq jurnallarda çıxan məqalələr** *Müəlliflərin ad və soyadları, jurnalın adı tam şəkildə yazılmalı; Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göstərilməli; mənbənin* ***internetdəki linki göstərilməlidir***

**Q1 üzrə:**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndə-* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | *rildiyi haqqında qeyd* | |
| | **yoxdur** | | | | |

**Q2 üzrə:**

| | | | | | |
|---|---|---|---|---|---|
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | **yoxdur** | | | | |

**Q 3 üzrə**

| | | | | | |
|---|---|---|---|---|---|
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | **yoxdur** | | | | |

**Q 4 üzrə**

| | | | | | |
|---|---|---|---|---|---|
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
| | **yoxdur** | | | | |

**Emerging Source Citation İndex (ESCI)**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| | **yoxdur** | | | | |

**3.2. Mövzu üzrə Scopus, ERIH PLUS, Philosopher's Index, Copernicus, Ulakbim, PsycINFO və ya EconLit bazalarına daxil olan jurnallarda çıxan məqalələr**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| *1.* | Yaqut Əliyeva | Yeni şəraitdə şəxsiyyət və cəmiyyətin ənənəvi dəyərlər sistemlərinin yenidən qiymətləndirilməsi zərurəti. | KutBilim Sosyal Bilimler ve Sanat Dergisi , 3 (1) , s. 49-59 DOI:10.58642/kutbilim.1315116 DergiPark, **ULAKBİM**. Ankara, Türkiyə. | Çap olunub | https://dergipark.org.tr/tr/download/article-file/3212275 https://dergipark.org.tr/en/pub/kutbilim/issue/78574/1315116 https://dergipark.org.tr/tr/pub/kutbilim/issue/78574/1315116 |
| *2* | Sevil İsmayılova | Волонтерская деятельность как проявление социальной | Восточно-Европейский научный журнал (Варшава. Польша) 4(89), часть 2 2023 ЖУРНАЛ DOI: 10.31618/ | Çap olunub | https://archive.eesajournal.com/index.php/eesa/issue/view/83 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | активности молодёжи в Азербайджане. | ESSA.2782-1994.2023.2.89 | | |

**3.3. Mövzu üzrə digər (1-2-ci bənddən fərqli) beynəlxalq jurnallarda çıxan məqalələr**

*Müəlliflərin ad və soyadlarıı, məqalənin adı, jurnalın parametrləri tam şəkildə yazılmalı; Dərc olunmuş, qəbul olunmuş və ya çapa göndərilmişdir kimi göste internetdəki linki göstərilməlidir*

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| *1.* | Tahir Ağayev | Azərbaycanda orta sinif: reallıqlar və perspektivlər (Konkret sosioloji tədqiqatın nəticələri əsasında) | ESSA II. Uluslararası Avrasiya Sosyal Bilimler ve Sanat Sempozyumu, 25-26 mart, 2023, Ankara/Türkiye, 29.04.2023, s.120-130 | Çap olunub | ISBN: 978-605-73444-4-1 |

**3.4. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi yerli elmi jurnallarda dərc olunmuş məqalələr**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| *1* | Rəfail Həsənov. | Azərbaycanın milli təhlükəsizliyi aspektində müasir gənclərin sosial problemləri. | Əmək və Sosial Münasibətlər. Elmi-praktik jurnal. Bakı, 2023, 2 (16), s. 126-136. | *Çap olunub* | 0-mundericat-2-2023 (1).pdf |
| *2* | Hörmət | Qaçqın və miqrantların uşaqlarının sosial | Əmək və Sosial Münasibətlər Akademiyası.Elmi-praktiki | *Çap olunub* | https://aesma.edu.az/az/page/27 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Cavadova | adaptasiyası və təhsil problemləri.Azərbaycan | jurnal.№,(19) 2023, 44-46 | | |
| *3* | Yaqut Əliyeva | "Cəmiyyət-ailə-təhsil-kiv" sisteminin uşaq/yeniyetmə cinayətkarliğina təsiri və rolu (Azərbaycan üzrə çoxpilləli tədqiqat materialları əsasında müqayisəli-sistemli təhlil) | Sosial Tədqiqatlar Elmi Analitik Jurnal. Cild 3, №1. 2023. s.96-109. Sosial Tədqiqatlar Mərkəzi. Bakı, Azərbaycan. | Çap olunub | https://socialresearchjournal.-az/index.php/2023/10/04/ |
| *4.* | Südabə Haşımova | Müasir şəraitdə peşə sosiallaşmasının xüsusiyyətləri və problemləri | Sosial tədqiqatlar. Elmi-analitik jur-nal (İSSN 2788 8789). 2023,Cild 3 №1, s.147-155 | Çap olunub | https://socialresearchjournal.az/wp-content/uploads/2023/10/ JURNAL-STM-2023-cap.pdf |
| *5.* | Natəvan Nəcəfova | Uşaq evlərinin məzunlari ilə bağlı aparılan sosial siyasətin empirik tədqiqi | Sosial tədqiqatlar. Elmi-analitik jur-nal (İSSN 2788 8789). 2023,Cild 3 №1, s.168-176 | Çap olunub | https://socialresearchjournal.az/wp-content/uploads/2023/10/ JURNAL-STM-2023-cap.pdf |

**3.5. Respublika səviyyəli elmi jurnallarda dərc olunmuş məqalələr**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|
| | | | | | |

**3.6. Mövzu üzrə konfrans materialları, konfranslarda çıxışlar**

| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında qeyd* | *mənbənin internetdəki linki, İD* |
|---|---|---|---|---|---|

| | | | | | |
|---|---|---|---|---|---|
| *1* | Rəfail Hasanov | The public sphere in Azerbaijan: a critical overview. | II. International Eurasian Symposium on Social Sciences and Arts 25-26 March 2023, Ankara / Turkey. Ankara 29.04.2023. pp. 1-12. Publisher KutBilim Research, Culture, and Solidarity Association | *Çap olunub* | PDF PROCEEDING BOOK - TAM METİN KİTAP.p |
| *2.* | Rəfail Həsənov | The public sphere in Azerbaijan: a critical overview. | II. International Eurasian Symposium on Social Sciences and Arts 25-26 March 2023, Ankara / Turkey. Ankara 29.04.2023. p. 6. | *Çap olunub* | PDF Özet Kitap-ESSA II..pdf |
| *3.* | Yaqut Əliyeva | Роль высшего образования в развитии познавательной активности студенческой молодёжи в Азербайджане | "DAVAMLI inkişaf məqsədlərinin nail olunmasıda universitetlerin rolu" Beynəlxalq Elmi-praktik Konfrans. Daşkənd, Özbəkistan, 29-30 may 2023-cü il. / "THE ROLE OF UNIVERSITIES IN ACHIEVING SUSTAINABLE DEVELOPMENT GOALS" International Scientific-Practical Conference. | *Məruzə* | https://dgu.ru/news/dgu-uchastnik-mezhdunarodnoy-konferentsii-rol-universitetov-v-dostizhenii-tseley-ustoychivogo-razvit/ |

### 3.7. Mövzu üzrə tezislər

| | | | | | |
|---|---|---|---|---|---|
| | *Müəlliflərin ad və soyadları tam şəkildə yazılmalı* | *materialın adı* | *harda yayılıb* | *materialın dərc olunduğu, qəbul olunduğu və ya çapa göndərildiyi haqqında* | *mənbənin internetdəki linki, İD* |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | *qeyd* | |
| *1.* | *Rəfail Həsənov* | Liderlik və cəmiyyət. | Beynəlxalq elmi-praktiki konfrans. Bakı, 2023, s. 24-26. | *Çap olunub* | |
| *2.* | Tahir Ağayev | "Azərbaycanda Uzaktan eğitim: başarılar ve sorunlar" | 14. Uluslararası Eğitimi Yönetimi Forumu. Eyfor XIV. Bildiri Özetleri kitabı. 02-07 mayis Antalya s. 88-89 | *Çap olunub* | E-ISBN: 978-975-2490-90-1 |
| *3.* | Tahir Ağayev | Orta sinif toplumun istikrarı ve gelişiminin sağlayıcısı olarak | II Uluslararası Avrasiya Sosyal Bilimler ve Sanat Sempozyumu, 25-26 mart, 2023, Ankara/Türkiye. 29.03.2002,s.48-49. | *Çap olunub* | ISBN: 978-605-73444-3-4 |
| *4.* | Tahir Ağayev | Müasir Azərbaycan cəmiyyətinin sosial strukturunun inkişaf meyilləri | Ümummilli lider H.Əliyevin 100-illik yubileyinə həsr olunmuş "Şəxsiyyət, cəmiyyət və dövlət XXI əsrdə: Qlobal çağırışlar və inkişaf perspektivləri" mövzusunda Sosial elmlər üzrə Beynəlxalq Fənlərarası elmi konfrans. IISCSS-2023. Bakı Dövlət Universiteti, Bakı, 2023 | *Çapda* | https://sociology.bdu.info.az/sosiologiya-konfrans-2023 |
